# ÖZƏL SEKTOR AZƏRBAYCAN DÖVLƏTİNİN DƏSTƏYİ SAYƏSİNDƏ İNKİŞAF EDİR



***Ulu öndər Heydər Əliyevin şah əsəri olan müasir Azərbaycan bu gün tərəqqi dövrünün yeni mərhələsini yaşayır. Əsası xalqımızın ümummilli lideri tərəfindən qoyulmuş inkişaf strategiyası bu gün ölkə Prezidenti tərəfindən zəmanəmizin tələblərinə uyğun olaraq təkmilləşdirilir və böyük müvəffəqiyyətlə həyata keçirilir. Hazırda şahidlik etdiyimiz uğurların təməli Azərbaycan dövlətinin özünün əsl müstəqillik qazandığı illərdən - Heydər Əliyevin xalqın təkidi ilə ikinci dəfə ali hakimiyyətə qayıdışından sonra qoyulub. Ümummilli lider Heydər Əliyev Azərbaycanda siyasi rəhbərliyə qayıdışının ilk dövründə demişdir: "Sahibkarlığın inkişaf etdirilməsi, sərbəst iqtisadiyyata yol verilməsi, bazar iqtisadiyyatının yaradılması bizim strateji yolumuzdur".***

Ulu öndərin layiqli davamçısı cənab İlham Əliyev tərəfindən köklü islahatların həyata keçirilməsinə 2003-cü ildən etibarən başlanıldı. Bu gün də islahatlar davam etdirilir. Bu da təsadüfi deyil, çünki beynəlxalq iqtisadi məkanda qlobal dəyişikliklər baş verir, ölkələr dərin maliyyə böhranlarından, tənəzzüldən əziyyət çəkir, dünya miqyasında yeni çağırışlar meydana gəlir. Bütün bunları qabaqlamaq, Azərbaycanı bütün bu sarsıntılardan qorumaq, ölkədə yaradılmış makroiqtisadi sabitliyin davamlılığını təmin etmək məqsədilə dərin islahatlara böyük ehtiyac yaranır.

Sirr deyil ki, Azərbaycanın inanılmaz sosial-iqtisadi inkişafının gerçəkləşdirilməsində özəl sektorun, sahibkarlığın əhəmiyyəti böyükdür. Dövlətimiz tərəfindən həyata keçirilən uğurlu iqtisadi siyasət və sahibkarlığa göstərilən diqqət və qayğı nəticəsində sahibkarlıq fəaliyyəti ilə məşğul olan iş adamları üçün mükəmməl hüquqi baza yaradılıb, ölkədə biznes mühitinin yaxşılaşdırılması istiqamətində islahatlar aparılır, zəruri tədbirlər kompleksi vahid bir sistem şəklində reallaşdırılır. Sahibkarlarımız nəyi, nə üçün, kimin üçün istehsal etmək, məhdud resurslardan istifadənin daha mütərəqqi üsullarının axtarılıb-tapılması, az xərclə keyfiyyətli məhsul istehsalı, yeni xidmət üsullarının tapılması, marketinqin səmərəli təşkili, istehlakçıların araşdırılması və sair sahibkarlıq fəaliyyəti ilə bilavasitə bağlı olan məsələlərin həllində ölkəmizin dövlət müstəqilliyi dövründə böyük uğurlar əldə edə biliblər.

Hazırda ölkəmizdə müxtəlif istehsal sahələrinin inkişaf etdirilməsi üçün xüsusilə gözəl mühit yaradılıb və hesab edirəm ki, öz dövlətinə sadiq olan, xalqını sevən hər bir vətənpərvər Azərbaycan vətəndaşı ölkəmizdə hökm sürən sabitlik, əmin-amanlıq və inkişafdan qürur duymalı, öz əməyi və fəaliyyəti ilə ölkəmizin tərəqqisinə, dinamik inkişafına töhfəsini verməlidir.

Əldə olunan bütün uğurların reallaşdırılması Azərbaycan dövlətinin diqqəti və qayğısı sayəsində mümkün olmuşdur. Təsadüfi deyil ki, hazırda müasir texnologiyalara və qabaqcıl təcrübəyə əsaslanan yeni müəssisələrin yaradılması ilə Azərbaycanda istehsal edilən sənaye məhsullarının çeşidi və rəqabətqabiliyyətliliyi də sürətlə artır. Bu gün ölkəmizdə fəaliyyət göstərən sənaye müəssisələrində bir çox sənaye məhsulları istehsal olunur ki, onlar üzrə Azərbaycan özünü təmin etmək iqtidarındadır.

21 fevral 2017-ci il daha bir mühüm və yaddaqalan gün kimi Azərbaycan dövlətçiliyinin tarixinə yazılmışdır. Həmin gün dövlət başçısının Sərəncamı ilə Mehriban xanım Əliyeva Azərbaycan Respublikasının Birinci vitse-prezidenti təyin edilmişdir. Ölkəmizdə aparılan dərin struktur və sosial-iqtisadi islahatların sürətləndirilməsi baxımından bu təyinat olduqca vaxtında verilmişdir. Böyük təşkilatçılıq təcrübəsinə, beynəlxalq nüfuza malik olan Mehriban xanım Əliyevanın bir çox sahələrdə olduğu kimi, ölkəmizin dünyada əldə etdiyi uğurların və qazandığı nüfuzunun möhkəmləndirilməsi, Azərbaycanda sosial sferanın inkişaf etdirilməsi, eləcə də sahibkarlığa dövlət dəstəyinin daha da gücləndirilməsi istiqamətində həyata keçirdiyi fəaliyyəti əvəzsizdir.

Məhz Mehriban xanım Əliyevanın verdiyi töhfədir ki, hazırda Azərbaycanda sahibkarlığa, xüsusilə də kiçik və orta sahibkarlığa göstərilən dövlət dəstəyinin daha da genişləndirilməsi sayəsində çoxlu işlər görülür, daxili və xarici sərmayələrin cəlb edilməsinə daha da geniş imkanlar yaradılır. Yeri gəlmişkən, bu günlərdə Dünya İqtisadi Forumunun "2017-2018 Qlobal Rəqabətlilik Hesabatı"nda ölkəmizin reytinqdə daha iki pillə yüksələrək 35-ci yerdə qərarlaşması Azərbaycanda aparılan iqtisadi islahatların uğurla həyata keçirilməsinin bariz nümunəsidir.



Təsisçi olduğum "Bakı İnşaat Sənaye" ASC həm müxtəlif növlü poladların, həm də yeni texnologiyaların tətbiqi ilə korroziyaya davamlı, dənizdə, quruda, inşaatda, qaz və su boru xətlərində istifadə edilən polad boru və müxtəlif ölçülü profillərin istehsalını həyata keçirir. Səhmdar cəmiyyətimiz Azərbaycanda həyata keçirilən islahatlardan bəhrələnmək, qeyri-neft sektorunun mühüm tərkib hissəsi olan sənayenin qara metallurgiya sahəsini daha da inkişaf etdirmək əzmindədir. Bu məqsədlə müəssisəmiz tərəfindən metal məmulatların istehsalı sahəsinin yaradılması ilə bağlı investisiya layihəsi hazırlanaraq "İnvestisiyaların təşviqi ilə bağlı əlavə tədbirlər haqqında" cənab Prezidentin 2016-cı ilin yanvarında 745 saylı Fərmanına uyğun olaraq Azərbaycan Respublikası Vergi Məcəlləsinin və "Gömrük tarifi haqqında" Azərbaycan Respublikası Qanununun müvafiq maddələrilə müəyyən olunmuş güzəştləri əldə etmək üçün İqtisadiyyat Nazirliyinə müraciət etmişdir. Nazirlik tərəfindən aparılmış hərtərəfli araşdırmalar və dəyərləndirmələr nəticəsində təqdim etdiyimiz layihə bəyənilmiş və 12 oktyabr 2017-ci ildə "Bakı İnşaat Sənaye" Açıq Səhmdar Cəmiyyətinə yuxarıda qeyd etdiyim güzəştləri əldə etmək hüququ verən İnvestisiya Təşviqi Sənədi təqdim olunmuşdur.

Cənab Prezidentin müəyyənləşdirdiyi hədəflərə nail olmaq istiqamətində dövlətimiz tərəfindən aparılan iqtisadi siyasətin yerlərdə icra edilməsində İqtisadiyyat Nazirliyinin müsbət fəaliyyətini qeyd etməmək olmaz. Qurumun çevik işləməsi sahibkarlara dövlətin təqdim etdiyi imkanlardan və imtiyazlardan vaxtında və tam şəkildə yararlanmağa imkan verir.

Birbaşa cənab İlham Əliyevin rəhbərliyi altında hazırlanmış "İnvestisiyaların təşviqi proqramı"nın uğurla həyata keçirilməsi Azərbaycanda fəaliyyət göstərən bütün iqtisadi subyektlər üçün olduğu kimi, müəssisəmiz üçün də geniş inkişaf perspektivləri açır, milli iqtisadiyyatımızın qeyri-neft sektorunda mövcud olan cəlbedici investisiya mühitini daha da əlverişli edir, yatırılan sərmayələrin faydalılığını yüksəldir və nəticə etibarilə Azərbaycanda investisiya fəaliyyətinin və özəl sahibkarlığın dövlətimizin qayğısı ilə əhatələndiyini bir daha nümayiş etdirir.

Müəssisəmizin kollektivi adından sahibkarlığın inkişafı üçün ölkəmizdə yaradılan bu gözəl şəraitə görə cənab Prezidentə bir daha öz dərin minnətdarlığımızı bildirir və əmin etmək istəyirik ki, həmişə olduğu kimi, dövlətimizin iqtisadi qüdrətinin möhkəmləndirilməsi, doğma Azərbaycanımızın daha da çiçəklənməsi üçün əlimizdən gələni edəcəyik. Biz öz işimizdə və öhdəmizə düşən bütün funksiyaları yerinə yetirməkdə yalnız Azərbaycan dövlətinin dəstəyinə arxalanırıq, bu dəstəyi görürük və Azərbaycan kimi sözün əsl mənasında müstəqil və nümunəvi bir ölkənin vətəndaşı olmaqdan və burada fəaliyyət göstərməkdən qürur duyuruq.



**Loğman ZÜLFÜQARLI,**
**"Bakı İnşaat Sənaye" ASC-nin təsisçisi.**